AZƏRBAYCAN RESPUBLİKASI

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN BƏSTƏKARLARININ YARADICILIĞINDA DASTAN JANRI MÖVZU VƏ KONSEPSİYA KİMİ

İxtisas: 6213.01 – Musiqi sənəti

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Humay Sərdar qızı Fərəcova-Cabbarova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Milli Konservatoriyasının "Musiqinin tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
**Lalə Şirməmməd qızı Hüseynova**

Rəsmi opponentlər: sənətşünaslıq doktoru, professor
**İmruz Məmməd Sadıx qızı Əfəndiyeva**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Güllü Həsən qızı İsmayılova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Kəmalə Ələşrəf qızı Atakişiyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
**Ülviyyə İsmayıl qızı İmanova**

Dissertasiya şurasının elmi katibi: sənətşünaslıq doktoru, dosent
**Leyla Ramiz qızı Zöhrabova**

Elmi seminarın sədri: sənətşünaslıq doktoru, dosent
**Aytac Elxan qızı Rəhimova**

# DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Şifahi xalq ədəbiyyatının bir qolu sayılan epik janr əsrlər boyu öz inkişafını yaşayaraq zamanla yazılı mənbələrdə, folklorda, musiqili-poetik aşıq yaradıcılığında ən ali mərhələləri fəth etmişdir. XX əsrin əvvələrindən etibarən isə Azərbaycan bəstəkarlarının yaradıcılığında epik mövzular böyük yer tutmağa başlayır və müxtəlif janrlı əsərlərdə özünəməxsus şəkildə təzahürünü tapır. Əlbəttə, epik mövzulara həsr olunmuş bütün milli bəstəkar əsərlərini nəzərdən keçirərək tam əhatə etmək mürəkkəb və çoxşaxəli işdir. Bu səbəbdən epik janrlardan biri sayılan dastan janrı araşdırılaraq tədqiqatımızda əsas yer alır.

Məlumdur ki, dastanlar əsasında opera və baletlər yazılmış, eləcə də bəstəkarlar dastan janrının ümumi struktur və forma cəhətlərini simfonik, kamera-instrumental, hətta vokal əsərlərdə belə göstərmişdilər. Bütün bunlar mövzumuzun aktuallığını şərtləndirən cəhətlərdir.

Bəstəkar yaradıcılığında dastanların böyük yer tutmasının əsas səbəbləri sırasına onun nəsr və nəzm hissələrindən ibarət olması, forma və struktur zənginliyi, çoxvariantlılığı və aşıq yaradıcılığı ilə sıx bağlılığıdır. Çünki aşıq sənəti Azərbaycan bəstəkarlarının yaradıcılığına hər zaman təsir etməkdədir. Bu baxımdan dastanlar əsasında yazılan bir çox bəstəkar əsərlərində aşıq musiqisinin hiss edilməsi təsadüfi deyildir.

XIX əsrin sonu XX əsrin əvvəllərindən etibarən musiqişünaslığın bir qolu kimi folklorşünaslıq və etnomusiqişünaslıq sahələri yaranaraq dastanların tədqiqi prosesi də xüsusi önəm daşımağa başlayır. Bu baxımdan Rusiya, Avropa və Azərbaycan etnomusiqişünaslarının tədqiqatları "dastan" janrının özəlliklərini dərindən öyrənmək üçün tədqiqat işimizdə əsas mənbələrdəndir.

İlk Avropa etnomusiqişünaslarından Erix Morits fon Hornbostel və Kurt Zaks [1] və eləcə də, rus etnomusiqişünaslarından Viktor

[1] Хорнбостель Э.М. фон., Заск К.Л. Систематика музыкальных инструментов/ Пер. И.З.Алендера// Народные музыкальные инструменты и инструментальная музыка/ Э.М фон Хорнбостел., К.Л. Заск – Москва: Советский композитор, – 1987, -с.229-261.

Mixayloviç Belyayev[2], Yevgeni Vladimiroviç Gippius[3], Kliment Vasilyeviç Kvitka[4], Feodosiy Antonoviç Rubsov[5] müxtəlif xalqların etnik mədəniyyətini, adət-ənənələrini, folklorunu, o cümlədən dastan yaradıcılığını öyrənərək musiqi elminə qiymətli töhfələr verdilər. Zamanla Klod Levi-Stross[6], Alqirdas Jülyen Qreymas[7], Sofiya İsaakovna Mints və Erna Vasilyevna Pomerantseva[8], Yuri Mixayloviç Lotman[9], Boris Andreyeviç Uspenski[10], Moris Konstantinoviç Azadovski[11], Vladimir Yakovleviç Propp[12, 13], Aleksandr Aleksandroviç Semyonov[14], Vasiliy Vasilyeviç Radlov[15] kimi folklorşünas alimlər maraqlı tədqiqatlar üzə çıxarmışlar. Xüsusilə V.Y.Proppun "Русский героический эпос" ("Rus qəhrəmani eposu"), "Морфология сказки" ("Nağılın morfologiyası") əsərləri

---

[2] Беляев, В.М. О музыкальном фольклоре и древней письменности / В.М.Беляев. – Москва: Советский композитор, – 1971. – 238 с.

[3] Гиппиус, Е.В. Избранные труды в контексте белорусской этномузыкологии / Е.В.Гиппиус. – Минск: Технология, – 2004. – 284 с.

[4] Квитка, К.В. Избранные труды в двух томах, т.1/ К.В. Квитка. – Москва: Советский Композитор, – 1971, -384 с.

[5] Рубцов, Ф.А. Статьи по музыкальному фольклору/ Ф.А. Рубсов. – Москва: Советский Композитор, – 1971, -220 с.

[6] Леви-Стросс К.Р. Мифологика / К.Р.Леви-Стросс. – Париж: Флюид Фри Флай, – I-IV том, – 2007. – 2096 с.

[7] Греймас, А.Ж. Структурная семантика. Поиск метода (перевод с французского Л.Зиминой)/ А.Ж. Греймас. – Москва: Академический Проект, - 2004. – 368 с.

[8] Минц, С.И Русская фольклористика / С.И.Минц., Э.В.Померанцева. – Москва: Просвещение, – 1971. – 415 с.

[9] Лотман, Ю.М. Внутри мыслящих миров / Ю.М. Лотман. – Москва: Языки русской культуры, – 1999. – 464 с.

[10] Успенский, В.А. Туркменская музыка / В.А.Успенский. Туркменистан: – Ашхабад, – Т 1, – 1979. – 381 с.

[11] Азадóвский, М.К. История русской фольклористики / М.К.Азадовский. – Москва: Гос.уч.-пед.изд. Минист.Прос.РСФСР, – 1958. – 406 с.

[12] Пропп, В.Я. Морфология сказки / В.Я.Пропп. – Москва: Наука, – т.2, – 1969. – 170 с.

[13] Пропп, В.Я. Русский героический эпос / В.Я.Пропп. – Ленинград: Лабиринт, – 2006. – 624 с.

[14] Туркестанский сборник / Сост. Семёнов А.А. – Ташкент: [н.р.], – том 568, – 1916. – 200 с.

[15] Радлов, В.В. Кюи Коркыта / Редактор Мусабек Жаркинбеков. – Алматы: Онер, – 1987. – 57 с.

etnomusiqişünaslıq və folklorşünaslıq elmində yeni sahələrin tədqiqinə yol açmışdır. Eləcə də A.A.Semyonovun tərtib etdiyi "Туркестанский сборник" ("Türküstan məcmuəsi"), V.V.Radlovun «Кюи Коркыта» ("Qorqud küyləri") kitabları sonrakı nəsil folklorşünas və etnomusiqişünas alimlər üçün yeni elmi axtarış yollarını müəyyənləşdirmək üçün xüsusilə əhəmiyyətlidir.

Adları sadalanan alimlərin nəzəri görüşlərini davam etdirən və epik ənənələrin musiqi ilə əlaqəsini öyrənən xarici musiqişünaslardan V.M.Belyayevin "О музыкальном фольклоре и древней письменности" ("Musiqi folkloru və qədim yazılar haqqında"), Svetlana Aleksandrovna Stasyukun "Некоторые принципы драматургии русской эпической оперы в ее связях с традициями древнерусского искусства"[16] ("Rus epik opera dramaturgiyasının qədim rus incəsənəti ilə əlaqələrinin bəzi prinsipləri"), Alma Bektursınovna Kunanbayevanın "Проблема казахской эпической традиции" [17] ("Qazax epik ənənəsinin problemi"), Polina Vasilyevna Pavlovanın "Претворение особенностей драматургии эпоса олонхо в якутском оперном искусстве"[18] ("Yakut opera sənətində olonxo eposunun dramaturji xüsusiyyətlərinin təcəssümü"), Nadejda Nikolayevna Nikolayevanın "Якутский героический эпос – олонхо и зарождение национальной оперы"[19] ("Yakut qəhrəmani eposu olonxo və milli operanın yaranması"), Gulnara Kazımovna Abulqazinanın "Казахская эпическая опера семидесятых годов"[20] ("Yetmişinci illərin qazax epik operası"), Qalina Borisovna Poltavtsevanın "Эпос и эпическое в

[16] Стасюк, С. С. Некоторые принципы драматургии русской эпической оперы в ее связях с традициями древнерусского искусства: / Автореферат диссертации кандидата искусствоведения / – Москва, 1991. – 25 с.

[17] Кунанбаева, А.Б. Проблема казахской эпической традиции: / Автореферат диссертации кандидата искусствоведения / – Ленинград, 1984. – 25 с.

[18] Павлова, П.В. Претворение особенностей драматургии эпоса олонхо в якутском оперном искусстве: / Автореферат диссертации кандидата искусствоведения / – Уфа, 2012. – 25с.

[19] Николаева, Н.Н. Якутский героический эпос - олонхо и зарождение национальной оперы: / Автореферат диссертации кандидата искусствоведения / – Москва, 1989. – 25с.

[20] Абулгазина, Г.К. Казахская эпическая опера семидесятых годов: / Автореферат диссертации кандидата искусствоведения / – Москва, 1990. – 18с.

музыке”[21] (“Musiqidə epos və epiklik”), İqor Fyodoroviç Belzanın “Вторая “Богатырская” симфония Бородина”[22] (“Borodinin İkinci “Bahadır” simfoniyası”), Valentina Nikolayevna Xolopovanın “Музыка как вид искусства”[23] (“Musiqi incəsənətin bir növü kimi”), Anna Amraxovna Amraxovanın (Əmrahovanın) “Когнитивные аспекты интерпретации современной музыки. На примере творчества азербайджанских композиторов”[24] (“Müasir musiqidə koqnitiv aspektin təfsiri. Azərbaycan bəstəkarlarının yaradıcılığı nümunəsində”) əsərlərindən araşdırmalarımızda istifadə olunmuşdur.

Təbii ki, Azərbaycan etnomusiqişünaslarının da elmi araşdırmalarına müraciət edilmişdir. Üzeyir Hacıbəyli[25] öndə olmaqla, Əminə Eldarova[26], Tariyel Məmmədov[27], Azad Ozan Kərimli[28], İradə Köçərli[29,30], Kamilə Dadaşzadə[31,32,33], Sənubər

---

[21] Полтавцева, Г.Б. Эпос и эпическое в музыке: / Диссертация канд. искусствоведения / – Москва, 1997. – 345 с.

[22] Бельза, И.Ф. Вторая “Богатырская” симфония Бородина / И.Ф.Бельза. – Москва: Музгиз, – 1960. – 20 с.

[23] Холопова, В.Н. Музыка как вид искусства / В.Н.Холопова. – Москва: Лань, Планета музыки, – 2014. – 320 с.

[24] Амрахова, А.А. Когнитивные аспекты интерпретации современной музыки. На примере творчества азербайджанских композиторов: / Автореферат диссертации кандидата искусствоведения / – Москва, 2005. – 40 с.

[25] Üzeyir Dünyası. – Bakı: Şərq-Qərb, – 2008, – 543 s.

[26] Eldarova, Ə.M. Azərbaycan aşıq sənəti / Ə.M.Eldarova. – Bakı: Elm, – 1996. – 200 s.

[27] Məmmədov, T.A. Koroğlu aşıq havaları / T.A.Məmmədov. – Bakı: Apostrof, – 2010. – 376 s.

[28] Керимов А.К. (Азад Озан Керимли). Таузская школа ашыгов Азербайджана: / Диссертация кан.искусствоведения / – Баку, 1995. – 190 с.

[29] Köçərli, İ.T. Aşıq sənəti: musiqili poetik janrlar / İ.T.Köçərli. – Bakı: Səda, – 2010. – 220 s.

[30] Köçərli, İ.T. Aşıq sənəti: sinkretizm və sintez problemləri / İ.T.Köçərli. – Bakı: Səda, – 2011. – 217 s.

[31] Dadaşzadə, K.H. “Şah Xətai” istilahdan konseptə doğru // “Muğam Aləmi” Beynəlxalq elmi simpoziumun materialları, – Bakı: Şərq-Qərb, – 2009. –s.70-77.

[32] Dadaşzadə, K.H. “Kitabi-Dədə Qorqud” dastanının bəzi koqnitiv modellərinə dair // “İnternational Society For Music Education. 33rd World Conference” konfransının materialları, – Bakı: 15-20 iyul, – 2018, – s.150-154.

[33] Dadaşzadə, K.H. “Kitabi-Dədə Qorqud” dastanının musiqi konseptsferasına dair // “Türk epos mədəniyyəti və “Kitabi Dədə Qorqud” dastanı” mövzusunda elmi-nəzəri konfransın materialları, – Bakı: Elm, – 2015. – s.14-18.

Bağırova[34,35], Lalə Hüseynova[36,37,38], Fəttah Xalıqzadə[39,40,41], Nailə Rəhimbəyli[42], Tutuxanım Quluzadə[43], Kəmalə Atakişiyeva[44] və b. musiqişünaslar dastanların, xalq musiqisinin, aşıq yaradıcılığının, aşıq havalarının, aşıq poeziyasının semantik cəhətlərini araşdıraraq onların bəstəkar yaradıcılığına təsirinə də diqqət yetirmişlər.

Qeyd edək ki, Azərbaycan bəstəkarları həm dastanlar əsasında əsərlər yazaraq fərqli yanaşmalarını ortaya qoymuş, həm də musiqişünas nöqteyi-nəzərdən onlara elmi münasibət göstərmişdilər. Dissertasiyada təhlilə cəlb etdiyimiz əsərlər siyahısında Üzeyir Hacıbəylinin "Əsli və Kərəm", "Koroğlu", Müslüm Maqomayevin "Şah İsmayıl", Zülfüqar Hacıbəyovun "Aşıq Qərib" operaları, Polad Bülbüloğlunun "Eşq və ölüm" baleti, Sərdar Fərəcovun "Dəli Domrul" teatr tamaşasına yazdığı musiqi, "Xətai" simfoniya-dastanı, "Koroğlu" freskası, "Beyrək", "Banuçiçəyin həsrəti" vokal-simfonik balladaları, Cavanşir Quliyevin "Dastan" simfoniyası, "Oğuznamə" baletindən "I Süita", Firəngiz Əlizadənin solo violin üçün "Dastan",

---

34 Bağırova, S.Y. Azərbaycan muğamı: tədqiqatlar, məqalələr, məruzələr / S.Y.Bağırova. – Bakı: Elm, – c.1, – 2007. – 243 s.

35 Bağırova, S.Y. Azərbaycan muğamı: tədqiqatlar, məqalələr, məruzələr / S.Y.Bağırova. – Bakı: Elm, – c.2, – 2007. – 265 s.

36 Hüseynova, L.Ş. "Eşq və ölüm, yaxud ölümlə rəqs edən məhəbbət " baleti // Azərbaycan musiqi tarixi [5 cildlik]. Red. Z.Y.Səfərova. – Bakı: AMEA, – c.5, – 2020. s.286-291.

37 Hüseynova, L.Ş. Polad Bülbüloğlu // Azərbaycan musiqi tarixi [5 cildlik]. Red. Z.Y.Səfərova. – Bakı: AMEA, – c.5, – 2020. – 672 s.

38 Hüseynova, L.Ş. Türk xalqlarının musiqisi. Ali musiqi məktəbləri üçün dərs vəsaiti. Bakı: Afpoliqraf, -2023, - 180 s.

39 Xalıqzadə, F.X. "Kitabi –Dədə Qorqud" və musiqi poetikasının bəzi məsələləri // – Bakı: Musiqi Dünyası, – 2000. – № 2(3), – s.34-40.

40 Xalıqzadə, F.X. "Kitabi-Dədə Qorqud"un musiqi sözlüyü // "Kitabi-Dədə Qorqud" məqalələr toplusu. – Bakı: Elm, – 1999. – s.160-168.

41 Xalıqzadə, F.X. Türk xalqlarının musiqisində axsaq ritmlərin öyrənilməsi perspektivləri // "İnternational Society For Music Education" konfransının materialları, – Bakı: 15-20 iyul, – 2018, – s.484-488.

42 Rəhimbəyli, N.R. "Aşıq Qərib" dastanı əsasında Azərbaycan dastanlarının melo-poetikası / N.R.Rəhimbəyli. – Bakı: Şərq-Qərb, – 2009. – 535 s.

43 Quluzadə, T.N. Üzeyir Hacıbəyli və Qara Qarayevin yaradıcılığında aşıq musiqisinin təzahür xüsusiyyətləri / T.N.Quluzadə. – Bakı: Mütərcim, – 2012. – 144 s.

44 Atakişiyeva, K.Ə. Şifahi ənənəli Azərbaycan professional musiqisi: aşıq və xanəndə yaradıcılığı / K.Ə.Atakişiyeva. – Bakı: Elm və təhsil, – 2020. – 136 s.

Aqşin Əlizadənin fortepiano üçün "Dastan" pyesləri, Yaşar Xəlilovun "Muğam-dastan" əsərləri vardır. Həmçinin Ü.Hacıbəyli, Ə.Bədəlbəyli[45], Ə.Abbasov[46], S.Fərəcov[47] və b. bəstəkarlarımız dastanlar əsasında yazılan əsərlərə musiqişünas nöqteyi-nəzərdən yanaşaraq maraqlı məqalələr yazmışlar.

Dastanlar əsasında yazılmış bəstəkar əsərlərinin musiqişünaslar tərəfindən tədqiqi də musiqi elmi üçün əhəmiyyətlidir. Bu baxımdan Xurşid Ağayevanın "Узеир Гаджибеков"[48] ("Üzeyir Hacıbəyov"), İzabella Abezqauzun "Опера "Кёроглы" Узеира Гаджибекова. О художественных открытиях композитора"[49] ("Üzeyir Hacıbəyovun "Koroğlu" operası. Bəstəkarın bədii kəşfləri haqqında"), Elmira Abasovanın "Опера "Кёроглы" Узеира Гаджибекова"[50] ("Üzeyir Hacıbəyovun "Koroğlu" operası**")**, "Оперы и музыкальные комедии Узеира Гаджибекова"[51] ("Üzeyir Hacıbəyovun opera və musiqili komediyaları"), Zemfira Qafarovanın ""Кёроглы" Узеира Гаджибекова"[52] ("Üzeyir Hacıbəyovun "Koroğlu" operası"), Zemfira Səfərovanın[53] "Узеир Гаджибеков" ("Üzeyir Hacıbəyov"), Ülviyyə Hacıbəyovanın "Xalq dastanları Azərbaycan bəstəkarlarının yaradıcılığında"[54] adlı kitabı, Raziyə Əliyevanın "Şah Abbas və

---

[45] Bədəlbəyli, Ə.B. Musiqi ilə döyünən ürək // Ədəbiyyat və incəsənət. – 1972, 18 noyabr. – s. 3.

[46] Аббасов, А.Дж. Узеир Гаджибеков и его опера "Кёроглы" / А.Дж.Аббасов. – Баку: АГИ, – 1956. – 65с.

[47] Fərəcov, S.F. Üzeyir Hacıbəyli "Şeyx Sənan" operasının librettosu - İlk nəşrə ön söz // – Bakı: Musiqi Dünyası, – 2010. – № 3 (44), – s.21-29.

[48] Агаева, Х.Г. Узеир Гаджибеков / Х.Г.Агаева. – Баку: АГИ, – 1955. –152 с.

[49] Абезгауз, И.В. Опера «Кёроглы» Узеир Гаджибекова. О художественных открытиях композитора».» / И.В.Абезгауз. – Москва: Советский Композитор, – 1987. – 231с.

[50] Абасова, Э.А.Опера "Кёроглы" Узеир Гаджибекова / Э.А.Абасова. – Баку: Азернешр, – 1966. – 60 с.

[51] Абасова, Э.А. Оперы и музыкальные комедии Узеира Гаджибекова / Э.А.Абасова. – Баку: Академия Наук Азербайджанской ССР, – 1961. – 195 с.

[52] Кафарова, З.Г. «Кёроглы» Узеира Гаджибекова / З.Г.Кафарова. – Баку: Язычы, – 1981. – 168 с.

[53] Сафарова, З.Ю. Узеир Гаджибеков / З.Ю.Сафарова. – Баку: Язычы, – 1983. – 64 с.

[54] Hacıbəyova, Ü.V. Xalq dastanları Azərbaycan bəstəkarlarının yaradıcılığında / Ü.V.Hacıbəyova. – Bakı: Nurlan, – 2010. – 100 s.

Xurşidbanu”, “Əsli və Kərəm” operası haqqında yazdığı məqalələri[55], Qəmər İsmayılovanın M.Maqomayevin “Şah İsmayıl” [56], C.Cəbrayılbəylinin “Z.Hacıbəyovun “Aşıq Qərib” operası”[57], Kəmalə Şəfiyevanın “Polad Bülbüloğlunun “Eşq və Ölüm” baletinin leytmotiv sistemi” [58] adlı elmi tədqiqat işləri də deyilənlərə nümunədir. Etnomusiqişünas Kamilə Dadaşzadə, “Знаковая система дастана”[59] (“Dastanın işarə sistemi”), “Восхождение” [60] (“Yüksəliş”), İradə Köçərli “Aşıq sənəti: sinkretizm və sintez problemləri” və s. adlı elmi əsərlərində dastanlar əsasında yazılan operaları tədqiqata cəlb edərək aşıqşünaslıq nöqteyi-nəzərdən tədqiq və təhlil etmişlər. Eləcə də, Sənubər Bağırova, Nemət Qasımlı[61], Nailə Rəhimbəylinin elmi işləri aşıqşünaslıq elminə dəyərli töhfədir. Bu kitablar mövzumuzun işlənmə dərəcəsi üçün də məqsədəuyğundur. Qeyd edək ki, musiqişünas alim Aida Hüseynovanın “Azərbaycan musiqisi – muğamdan operaya doğru” [62] monoqrafiyası isə müasir Azərbaycan musiqisi haqqında ingilis dilində yazılan ilk nəşrlərdəndir.

**Tədqiqatın obyekti və predmeti.** Təqdim olunmuş tədqiqat işinin əsas obyekti “dastan” janrı və onun professional bəstəkar yaradıcılığında müxtəlif təzahür formalarıdır. Buraya Azərbaycan bəstəkarlarının bir sıra opera və baletləri, simfonik əsərləri, habelə kamera-vokal və kamera-instrumental əsərləri daxildir.

---

[55] Əliyeva, R.Ə. “Şah Abbas və Xurşud Banu”, “Əsli və Kərəm”-90 // – Bakı: Musiqi dünyası (“İrsimiz”), – 2002. – № 3-4(13), – s.59-60.

[56] İsmayılova, Q.A. Müslüm Maqomayev / Q.A.İsmayılova – Bakı: Yazıçı, – 1985. – 63 s.

[57] Cəbrayılbəyli, C.M. Zülfüqar Hacıbəyov / C.M.Cəbrayılbəyli. – Bakı: İşıq, – 1985. – 107 s.

[58] Şəfiyeva, K.P. Polad Bülbüloğlunun “Eşq və Ölüm” baletinin leytmotiv sistemi // – Bakı: Gənc tədqiqatçılar, – 2008. – №1-2(35), – s.185-187.

[59] Дадаш-заде, К.Г. Знаковая система дастана / К.Г. Дадаш-заде. – Баку: Нурлан, – 2004. – 292 с.

[60] Дадаш-заде, К.Г. Восхождение / К.Г.Дадаш-заде. – Баку: Шерг-Герб, – 2014. – 232 с.

[61] Qasımlı, N.Y. Gədəbəy aşıq mühitində Miskin Vəlinin mövqeyinə dair // “Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri” XVII Beynəlxalq elmi-praktiki konfransının materialları, – Bakı, – 2018. s. 272-276.

[62] Huseynova, A.N. Azerbaijan Music. From Mugham to Opera / A.N.Huseynova. – İndiana: Universiti Press, – 2016. – 360 p.

Tədqiqatın predmetini isə XX və XXI əsrin I yarısında yazılan bəstəkar əsərlərində dastan mövzularının əks olunması məsələsi, dastan konsepti və konsepsiyasının təcəssüm aspektləri təşkil edir ki, bu zaman fərqli bəstəkar yanaşmalarının açılması və müqayisəsi nəzərdə tutulur.

**Tədqiqatın məqsəd və vəzifələri.**

1. Dastanlar əsasında yazılmış Azərbaycan bəstəkarlarının səhnə əsərlərini yenidən nəzərdən keçirərək fərdi yanaşmalarımızı təqdim etmək;

2. Müasir Azərbaycan bəstəkarlarının simfonik əsərlərini təhlil etmək və dastan konsepsiyasını müəyyənləşdirmək;

3. Azərbaycan bəstəkarlarının vokal-instrumental, kamera instrumental əsərlərində dastan janrının təzahür formalarını araşdırmaq;

4. Dastan janrının, eləcə də aşıq musiqisinin bəstəkar yaradıcılığına olan təsirinin hansı gücdə olmasını öyrənmək;

5. Klassik və müasir Azərbaycan bəstəkarlarının dastan janrına olan münasibətlərini araşdırmaq, musiqi dili və üslubunu müqayisəli təhlil etmək;

6. Dastan konseptsferasının bəstəkar əsərlərində təzahürünü tapıb göstərmək;

7. Dastan–əsasında yazılmış bəstəkar əsərlərini dastan janrı ilə müqayisə etmək;

Tədqiqatın materialını faktiki olaraq elmi və bədii kitablar, monoqrafiyalar, broşürlar, məqalələr, bəstəkar əsərləri - partituralar və klavirlər, eskizlər (not əlyazmaları) təşkil edir. Burada Ü.Hacıbəylinin “Əsli və Kərəm”, “Koroğlu”, M.Maqomayevin “Şah İsmayıl”, Z.Hacıbəyovun “Aşıq Qərib” operalarının, P.Bülbüloğlunun “Eşq və ölüm” baletinin, S.Fərəcovun “Dəli Domrul” teatr tamaşasının, “Xətai” simfoniya-dastanının, “Koroğlu” freskasının, “Beyrək”, “Banuçiçəyin həsrəti” vokal-simfonik balladalarının, C.Quliyevin “Oğuznamə” baleti əsasında yazılmış I süitasının, “Dastan” simfoniyasının, A.Əlizadənin fortepiano üçün “Dastan”, F.Əlizadənin solo violin üçün “Dastan” pyeslərinin, Y. Xəlilovun “Muğam-dastan” əsərlərinin adları yer tutur. Partituraların bir qismi Bakı Musiqi Akademiyasının, Azərbaycan Milli Konservatoriyasının kitabxanalarından, digər hissəsi isə bəstəkarların şəxsi arxivlərindən götürülmüşdür.

**Tədqiqat metodları.** Tədqiqat işində empirik, məntiqi-müqayisəli (və ya komparativ), sintaktik və müəyyən qədər semantik təhlil metodlarından istifadə edilmişdir.

1. Empirik metod – dastanların ümumi mənzərəsi və strukturunun açılmasıdır. Empirik metodla dastanlar əsasında yazılmış əsərlər arasında müəyyən nəzəri təhlillər aparılmışdır.

2. Məntiqi-müqayisəli metod – dastanlar əsasında yazılmış əsərlərin müqayisəli təhlilidir. Məntiqi-müqayisəli (və ya komparativ) metodla ayrı-ayrı janrlar, musiqi üslubları, ifaçılıq tərzləri və s. analitik təhlillər və məntiqi müqayisələrlə tədqiq olunmuşdur.

3. Sintaktik metod – dastan janrının quruluş və formasının öyrənilməsidir. Sintaktik metodla dastan janrının quruluşu və forması nəzərə alınmışdır.

4. Semantik metod – dastanların mövzu, məzmun və konsepsiyası, eləcə də dastan konseptlərinin araşdırılmasıdır. Bura həmçinin, folklor süjetlərinin araşdırılması da aiddir.

5. Tarixi metod – dastanlardakı tarixi proseslərin, tədqiqat obyektinin təşəkkülü və inkişaf mərhələlərinin araşdırılmasıdır.

Musiqişünaslığın və ədəbiyyatşünaslığın ümumi nəzəri prinsipləri, Azərbaycan, həmçinin xarici ölkə musiqişünasları və ədəbiyyatşünaslarının, o cümlədən, K.Dadaşzadə, L.Hüseynova, F.Xalıqzadə, İ.Köçərli, T.Quluzadə, C.Həsənova [63], S.Bağırova, N.Rəhimbəyli, M.Cəfərli [64], M.Təhmasib [65], K.Vəliyev [66], M.Aranovski [67], T.Livanova [68], D.Lixaçov [69], Y.Nazaykinski [70],

---

[63] Həsənova, C.İ. Dəstgah formasının müxtəlif təfsirləri – Azərbaycan bəstəkarlarının yaradıcılığı timsalında // "Muğam Aləmi" Beynəlxalq elmi simpoziumunun materialları, – Bakı: Şərq-Qərb, – 2015, – s.131-145.

[64] Cəfərli, M.Z. Azərbaycan Məhəbbət Dastanları / M.Z.Cəfərli. – Bakı: Elm, – 2000. – 265 s.

[65] Təhmasib, M.H. Xalq dastanları. Orta əsrlər / M.H.Təhmasib. – Bakı: Elm, – 1972. – 398 s.

[66] Vəliyev, K.N. Dastan poetikası / K.N.Vəliyev. – Bakı: Yazıçı, – 1984. – 224 s.

[67] Арановский, М.К. Симфонические искании 1960-1875 / М.К.Арановский. – Ленинград: Советский Композитор, – 1979. – 290с.

[68] Ливанова, Т.Н. История западноевропейской музыки до 1789 года / Т.Н.Ливанова. – Москва: Музыка, – 1983. – 503 с.

[69] Лихачёв, Д.С. Новгород Великий: Очерк истории культуры Новгорода 11-17 века / Д.С.Лихачёв. Ленинград: Гос.полит.издат, – 1945. – 104 с.

V.Y.Propp və başqalarının tədqiqatlarında işlənmiş elmi-nəzəri konsepsiyalar dissertasiyanın metodoloji əsasını təşkil edir. Tədqiqata cəlb etdiyimiz epik əsərlər forma, musiqi dili, ritm, intonasiya və s. baxımından təhlil olunarkən görkəmli Rusiya, Qazaxıstan və Azərbaycan tədqiqatçıları – S.A.Stasyuk, A.B.Kunanbayeva, P.V.Pavlova [71], N.N.Nikolayeva, G.K.Abulqazina, Q.B.Poltavtseva, İ.Abzeqauz, Ə.Abbasov, E.Abasova və Z.Qafarova kimi alimlərin elmi tədqiqatlarında yer alan nəzəri müddəalardan istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə aşağıdakı müddəalar çıxarılır:

1. Digər epik janrlarla müqayisədə dastan janrı Azərbaycan bəstəkarlarının maraq dairəsində mühüm yer tutur.

2. Azərbaycan musiqişünaslarının dastanlar əsasında yazılan (səhnə əsərləri istisna olmaqla) müxtəlif janrlı əsərlərə dair tədqiqat işləri çox azdır.

3. Epik ruhda (dastanlar əsasında) yazılmış əsərlər həm də tarixi yaddaşımıza yenidən baxış deməkdir. Bir çox əsərlərdə rast gəlinən əski oğuz, sufi-dərviş, ozan havalarının intonasiyalarının, habelə xalq musiqi nümunələrinin, muğamların interpretasiya edilərək üzə çıxması məqsədyönlü xarakter daşıyır.

4. Dastanlar əsasında yazılmış əsərlərin (simfonik, kamera-instrumental) bir çoxunda forma strukturu mürəkkəbdir. Hər bir bəstəkarda musiqili dastanlar fərqli forma və məzmunda öz əksini tapır.

**Tədqiqatın elmi yeniliyi.** İlk dəfə olaraq dastan janrının Azərbaycan bəstəkarlarının yaradıcılığında mövzu və konsepsiya kimi əhəmiyyəti öyrənilmiş, eləcə də dastan janrının təzahür formaları təkcə operalarda deyil, müxtəlif musiqi janrlarında (opera, balet, teatr tamaşası, vokal, kamera-instrumental) araşdırılaraq xalq dastanları ilə müqayisə edilir. Elmi işimizdə bəstəkarların dastan janrına olan yaradıcı münasibəti əsas götürülür, müxtəlif janrlı bəstəkar əsərlərinin musiqi üslubu əski-oğuz türklərinin musiqi

---

[70] Назайкинский, Е.В. Логика музыкальной композиции / Е.В.Назайкинский. – Москва: Музыка, – 1982. – 319 с.

[71] Павлова, П.В. Претворение особенностей драматургии эпоса олонхо в якутском оперном искусстве: / Автореферат диссертации кандидата искусствоведения / – Уфа, 2012. – 25с.

üslublarının öyrənilməsinə də müəyyən cığır açır. Beləliklə, işin elmi yeniliyini aşağıdakı müddəalarla səciyyələndirmək olar:

1. İlk dəfə olaraq dastan janrının Azərbaycan bəstəkarlarının yaradıcılığında mövzu və konsepsiya kimi əhəmiyyəti öyrənildi;

2. Bir çox bəstəkar əsərləri ilk dəfə olaraq təhlilə cəlb olundu;

3. Dastan janrının təzahür formaları müxtəlif musiqi janrlarında (opera, balet, teatr tamaşası, vokal, kamera-instrumental) nəzərdən keçirildi;

4. Bəstəkar təfəkküründə dastan adı daşıyan bəzi əsərlərdə dastanların hekayət, rəvayət və s. kimi qəbul edilməsi müəyyənləşdi;

5. Şifahi xalq ədəbiyyatındakı dastanlarla əlaqəli olan şeir, aşıq musiqisi, remarkalar, oğuz türklərinin musiqi elementləri, qiraət, obrazlılıq, teatrallıq, habelə birbaşa dastanlarla əlaqəli olmayan muğamlar, məqam gəzişmələri (modulyasiyalar), müasir üslub, harmoniya, polifoniya, yeni yazı üslubu və s. elementlərin sintezindən bəhs edildi;

**Dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat "Azərbaycan musiqi tarixi", "Bəstəkar yaradıcılığının aktual problemləri", habelə "Azərbaycan xalq yaradıcılığı", "Etnomusiqişünaslıq" və s. fənlərin tədrisində istifadə oluna bilər. Tədqiqat işi həmçinin bəstəkar yaradıcılığının tədqiqində metodoloji baxımdan faydalı ola bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas nəticələri və müddəaları Azərbaycan və Rusiya kimi ölkələrin beynəlxalq xülasələndirmə və indeksləşdirmə sistemlərinə daxil olan dövri elmi nəşrlərdə dərc olunan 12 məqalədə öz əksini tapmışdır. Mövzu ilə bağlı məruzələr bir sıra yerli və beynəlxalq elmi-nəzəri konfranslarda dinlənilmişdir.

**Dissertasiyanın işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Konservatoriyasının "Musiqinin tarixi və nəzəriyyəsi" kafedrasında tamamlanmışdır.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi. D**issertasiya Giriş, 3 fəsil (8 paraqraf), Nəticə, İstifadə edilmiş ədəbiyyat siyahısı və Əlavələr bölməsindən ibarətdir. Giriş 9 səhifə və 1 906 işarə; I fəsil 23 səhifə 5 745 işarə; II fəsil 55 səhifə 90 253 işarə; III fəsil 59

səhifə 99 960 işarə; Nəticə bölməsi 5 səhifə və 8 690 işarə; istifadə edilmiş ədəbiyyat siyahısı 23 səhifə və 29298 işarə; Əlavələr bölməsi 134 səhifə və 50 691 işarə sayı həcmindədir. Dissertasiyanın ümumi həcmi 153 səhifə (İstifadə edilmiş ədəbiyyat siyahısı və Əlavələr bölməsi istisna olunmaqla), 253 259 işarə sayından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın Giriş bölməsində mövzunun aktuallığı səciyyələndirilir, işlənmə dərəcəsi ilə bağlı elmi ədəbiyyat işıqlandırılır, dissertasiyanın predmeti və obyekti, məqsəd və vəzifələri, müdafiəyə çıxarılan müddəalar, elmi yeniliklər və digər müvafiq bölmələr yer alır.

Dissertasiya işinin birinci fəsli **"Musiqi elmində epos və epiklik"** adlanır. Bu fəsil özündə iki paraqrafı birləşdirir. Birinci paraqraf **1.1.** "**Dastan musiqili-poetik janr kimi**" adlanır. Burada mövzu ilə bağlı bir sıra məsələlərə, o cümlədən müəyyən termin və ifadələrə (epos, dastan, epiklik və s.) aydınlıq gətirilir.

Mövzu ilə əlaqədar olaraq bu fəsildə "mövzu" və "konsepiya" anlayışları öz izahını tapır. Məlum olur ki, Azərbaycan bəstəkarları dastan mövzuları və motivləri əsasında əsərlər yazdığı kimi, həmçinin "dastan konsepsiyaları"ndan istifadə edərək musiqiyə dastan janrının bədii formasını da (nəsrlə nəzmin əvəz edilməsi, aşıq-ozan musiqisi, teatrallıq, qiraət, epik şəhrçilik və s.) tədbiq edirlər. Burada "konsepsiya" termini mövzudan irəli gələrək müxtəlif cür şərh edilir. Əsərin "ideyası", "məzmunu", "quruluşu" və ya "obrazları simvolizə edən məfhumlar" kimi də öz əksini tapa bilər.

Elmi işimizdə konsepsiyaya morfoloji baxımdan yaxın, lakin leksik məna baxımdan fərqli olan "konsept" termininə də rast gəlinir. Məhz "konsept" və "konsepsiya" elmi işimizdə əsaslı yer alan paronimlərdir.

Azərbaycan musiqişünaslarından K.Dadaşzadənin elmi nəzəriyyəsinə əsasən belə müəyyən olur ki, aşıq havalarından irəli gələrək dastanlarda *"öymə", "savaş", "ağı", "qudsallıq", "öyüd-nəsihət", "xeyir-dua-alqış"* kimi konseptlər vardır. Məhz bu konseptlər dastanların ümumi konseptsferasını yaradır. Dastan

konseptsferasına aid konseptlərin hamısı bir dastan daxilində təbii ki, olmaya da bilər. Məsələn, “Koroğlu”, “Qaçaq Nəbi” kimi dastanların konseptsferasının əsasını “savaş” konsepti təşkil edirsə, “Kitabi-Dədə Qorqud” dastanının ayrı-ayrı boylarında “savaş” konseptindən başqa “öymə”, “qudsallıq” və “ağı” kimi konseptlərə də geniş rast gəlmək mümkündür.

“Dastan” janrına mövzu və konsept, eləcə də, struktur olaraq yanaşma Azərbaycan bəstəkarlarının yaradıcılığında müxtəlif musiqili janrlarda geniş yer almışdır. Məsələn, Ü.Hacıbəylinin “Koroğlu” operasında Koroğlu Qıratı tərifləyərək “Gözəlləmə” oxuyur və burada “öymə” (tərifləmə) konsepti öz əksini tapır. Yəni konseptlərin musiqi ilə ifadəsinin ekvivalenti həm aşıq yaradıcılında, həm də bəstəkar yaradıcılığında təfsir olunur.

Elmi işimizdə “konsept”lər “yeni-yeni fikirlər” və ya “mətnaltı fikirlər”, “sözlə musiqinin vəhdətli fəlsəfəsi” anlamında ortaya çıxırsa, konsepsiya “əsərin ümumi bədii fəlsəfi ideyası, quruluşu və konseptlər toplusu” kimi başa düşülür.

Yekun olaraq deyə bilərik ki:

1. Epos geniş mənada rəvayət, dastan, hekayət, əsatirdir, digər (dar) mənada isə dastandır. Buna görə də epiklik nəqletmə mənasında, dastançılıq anlamında da başa düşülür. Epos digər (dar) mənada dastan kimi qəbul edilir.

2. Azərbaycan dastanları mövzu və forma cəhətdən yalnız ədəbiyyatşünas alimlər tərəfindən deyil, həmçinin aşıqşünaslar, musiqişünaslar tərəfindən öyrənilmiş, bəstəkarlara isə yeni yaradıcılıq mənbəyi olmuşdur.

3. Folklorşünaslıq, aşıqşünaslıq elminin inkişafında dastanların əhəmiyyətli və müstəsna rolu vardır.

Birinci fəslin ikinci paraqrafı **1.2. “Musiqi elmində dastan janrının tədqiqi məsələləri”** adlanır. XX əsrdən başlayaraq aşıq musiqisi professional bəstəkar yaradıcılığında yer alaraq orijinal musiqi üslubunun yaranmasına səbəb olmuşdur. Bunun nəticəsi kimi epik ənənələrin aşıq dastançılığı bəstəkarlarda böyük maraq oyadır. Əlbəttə, Azərbaycan bəstəkarlarının aşıq musiqisinə olan isti münasibətinin Üzeyir Hacıbəylidən başladığını xüsusilə vurğulamalıyıq. Bəstəkar özünün operaları və “Aşıqsayağı” triosu ilə

aşıq musiqisinə maraq yaradaraq eyni zamanda musiqişünaslar tərəfindən aşıq musiqisinin dərindən tədqiq edilməsinə möhkəm təkan vermişdir. Belə ki, onun operalarının baş qəhrəmanları (Kərəm, Koroğlu) həm sevən aşiqlərdir, həm də haqq aşıqlarıdır. Məsələn, "Koroğlu"nun "Səni gördüm aşıq oldum", "Eşitsin xanlar, paşalar", "Nazlı yarım, vəslə çatdım" sözləri ilə başlayan aşıq havalarında bəstəkar aşıq musiqisinin onun yaradıcılığında nə qədər əhəmiyyətli rol oynadığını göstərmişdir. Qeyd edək ki, Ü.Hacıbəylinin "Vətən və cəbhə" kantatasına daxil edilmiş "Saz çalan qızların mahnısı" da olduqca maraqlı və diqqətəlayiqdir. Üzeyir Hacıbəyli həmçinin "Azərbaycan musiqi həyatına bir nəzər", "Aşıq sənəti", "Azərbaycan aşıqları" kimi məqalələrində aşıq yaradıcılığından bəhs etmişdir.

I fəsildə apardığımız araşdırmalar nəticəsində belə qənaətə gəlirik ki, dastan təkcə ədəbi janr və aşıq yaradıcılığının məhsulu kimi deyil, həm də bəstəkar yaradıclığında ədəbi-musiqili forma kimi də qəbul edilməkdədir. Burada dastanların ümumi forma və konsepsiyası, bədii gücü də önəmli rol daşıyır. Zənnimizcə, artıq musiqişünaslıqda "dastan forması", və ya "musiqili dastan" ("musiqi dastanları") terminin geniş istifadə edilməsinə ehtiyac duyulur.

Dissertasiya işinin ikinci fəsli **"Azərbaycan bəstəkarlarının musiqili-səhnə əsərlərində epik mövzuların təcəssümü"** adlanır. Bu fəsil özündə üç paraqrafı birləşdirir. Birinci paraqraf **2.1. "Musiqili epik əsərlərin tipoloji xüsusiyyətləri (səhnə əsərlərində)"** adlanır. Musiqi tarixində bir neçə opera növü inkişaf etmişdir ki, onlar öz dramaturji xüsusiyyətlərinə görə seçilərək musiqişünaslar tərəfindən öyrənilmişdir. Bu baxımdan dastan, nağıl, rəvayət, əfsanələr əsasında yazılmış epik operaların dramaturji xüsusiyyətlərinə nəzər salınmış, bir sıra musiqişünasların elmi araşdırmaları ümumiləşdirilərək epik operalara aid (həm Avropa, həm də Azərbaycan bəstəkarlarının operaları) tipoloji xüsusiyyətlər müəyyənləşdirilmişdir.

Opera tarixinin icmalı belə bir mülahizə irəli sürməyə imkan verir ki, müxtəlif ölkələrdə və zaman kəsiyində həyata keçirilmiş janr islahatları, bu və ya digər dərəcədə, epos başlanğıcı ilə də bağlı olmuşdur. Belə ki, epik əsərlər və miflər (dastanlar) Avropa bəstəkarlarının yaradıcılığında geniş formada öz təzahürünü tapmış,

istər Avropa, istərsə də rus bəstəkarlarının epik operalarında ədəbi janrla musiqili janr arasında məntiqi vəhdət yaradılmışdır.

İkinci fəslin ikinci paraqrafı **2.2. “Azərbaycan bəstəkarlarının səhnə əsərlərində dastan mövzusu”** adlanır. Azərbaycan operasının banisi Üzeyir Hacıbəyli öz operalarında həm muğamdan, həm də aşıq musiqisindən istifadə etmiş, opera dramaturgiyasına dastan əlamətləri vermiş və opera-dastanlar yazmağa müvəffəq olmuşdur.

Ü.Hacıbəylini XIX əsrin görkəmli opera reformatoru R.Vaqnerlə müqayisə etsək, hər ikisinin operalara mövzu seçimi ilə bağlı təsəvvürlərində yaxın oxşarlıq görürük. R.Vaqnerə görə opera üçün ən yaxşı süjet milli alman əfsanələri, dastan və rəvayətləridir. Üzeyir Hacıbəyliyə görə də opera üçün ən yaxşı süjet rəvayət və dastanlardır. Buna görə də bəstəkarın bütün operalarının süjet xətti rəvayət və dastanlara əsaslanmışdır. “Leyli və Məcnun” (1908), “Şeyx Sənan” (1909), “Rüstəm və Zöhrab” (1910) , “Şah Abbas və Xurşudbanu” (1912) , “Harun və Leyla” (1915) operaları həm şifahi, həm də yazılı şəkildə təcəssümünü tapmış rəvayətlər, “Əsli və Kərəm” (1912), “Koroğlu” (1937) operaları isə məşhur dastanlar əsasında yazmışdır. Üzeyir Hacıbəylinin opera sənətinə gətirdiyi ənənələri bəstəkar Z.Hacıbəyov “Aşıq Qərib”, Müslüm Maqomayev isə “Şah İsmayıl” opera-dastanlarında yaşatmışlar.

Azərbaycan bəstəkarlarının yaradıcılığında dastanlar əsasında yazılmış epik operalara rast gəlindiyi kimi, baletlərə də rast gəlmək mümkündür. Bu baxımdan Polad Bülbüloğlunun “Eşq və ölüm”, V.Camalzadənin “Dədə-Qorqud”, İ.İsrafilovanın “Dədə Qorqud” balet-dastanlarını qeyd edə bilərik.

Bu paraqrafda təhlil edilən əsərlər və araşdırmalarımızın yekunu olaraq belə nəticəyə gəlirik:

1. Milli dastan konsepsiyasının və ümumdünya epik janrın tipoloji xüsusiyyətləri Azərbaycan bəstəkarlarının yaradıcılığında mühüm əhəmiyyət kəsb edir.

2. Dastan konseptsferasına aid konseptlər, dastanların məzmun və forması, struktur cəhətləri Azərbaycan opera və baletlərində geniş yer alır.

II fəslin üçüncü paraqrafı **2.3. “Kitabi Dədə Qorqud” dastanının müasir musiqi təfsiri (Sərdar Fərəcovun**

**yaradıcılığında)”** adlanır. “Kitabi-Dədə Qorqud” dastanının ideya-bədii məzmunu bir çox ədəbiyyat və incəsənət xadimlərinin ilham mənbəyi olaraq, müasir əsərlərin yaranmasına təkan vermişdir. Bu əsərlərdən biri də Sərdar Fərəcovun “Dədə Qorqud” dastanının motivləri əsasında 1997-ci ildə premyerası olmuş “Dəli Domrul” tamaşasına yazdığı musiqidir. İlk dəfə olaraq təhlilə çəkilmiş bu musiqinin dastanlar əsasında yazılmış operalardan nə dərəcədə fərqlənməsi öz izahını tapmışdır.

Süjetdən asılı olaraq hadisələrin gedişatı, qəhrəmanların, obrazların daxili aləmi musiqi ifadə vasitələri ilə özünü büruzə verir. Belə ki, epik janra məxsus təhkiyəçilik və s. reçitativ-deklamasiya xarakterli, sakit templi, aramlı musiqi nömrələri əsərdə öz əksini tapmışdır. Süjet dastandan qaynaqlandığı üçün və eləcə də nəzərə alsaq ki, dastan aşıq yaradıcılığının məhsuludur, təbii ki, musiqidə də aşıq musiqisinin intonasiyalarına geniş yer verilmişdir. Ən maraqlı cəhət isə burasındadır ki, bir çox musiqi nömrələri məhz “Dəli Domrul” boyundakı orijinal sözlər əsasında yazımışdır. Həmçinin qeyd edək ki, “Dünya”, “Ozan”, Domrulun “Ana”-ya, “Ata”-ya və “Qadın”ına aid olan musiqi nömrələri öyüd-nəsihət konseptlərinə aiddir.

S.Fərəcovun tamaşanın musiqi tərtibatında sanki qədim oğuz elinin musiqisini, əski ozan havalarını qismən bərpa etdiyini düşünmək olar. Bu məqsədlə S.Fərəcov aşıq musiqisinin səciyyəvi xüsusiyyətlərini özünəməxsus şəkildə təfsir etmişdir. Tamaşaya yazılan musiqi nömrələrində bəstəkar reçitativ-deklamasiya üslubundan, variantlılıq və təkrarlıq prinsiplərindən, aşıq harmoniyasından, qeyri-müntəzəm metrik quruluşdan, məqam-intonasiya xüsusiyyətlərindən və s. geniş şəkildə istifadə olunmuşdur. Nəticədə isə S.Fərəcov “Kitabi-Dədə Qorqud” eposunun məzmunu ilə səsləşən, boyların ümumi ab-havasını əks etdirən Azərbaycan teatr musiqisinin parlaq nümunəsini yaratmışdır.

Elmi işimizin II fəslinə dair belə bir nəticəyə gəlirik ki, dastanlar əsasında yazılmış əsərlərdə libretto vacib rol oynasa da, bəstəkar yaradıcılığı, təxəyyülü də xüsusi önəm daşıyır. Dastanlarda əski türk, qədim oğuz musiqisinə məxsus olan melodik quruluşun və ifaçılıq prinsiplərinin orijinal bəstəkar əsərlərində yer almasını qismən oğuz musiqisinin bərpasi kimi də görmək olar. Təhlil olunan

əsərlərin mövzusu birbaşa dastanlardan qaynaqlanır, lakin ümumilikdə dastan konsepsiyasının tədbiqi bəstəkarların yaradıcılıq təxəyüllündən, genetik yaddaş gücündən, seçimindən irəli gələrək özünəməxsus şəkildə təzahür edir.

Dissertasiyanın III fəsli **"Azərbaycan bəstəkarlarının müxtəlif janrlı əsərlərində dastan – mövzu və konsepsiya kimi"** adlanır və özündə üç paraqrafı birləşdirir. Birinci paraqraf **3.1.** "**Epik simfonizm və Azərbaycan bəstəkarlarının simfonik əsərlərində dastançılıq ənənələri"** adlanır. Burada milli bəstəkar yaradıcılığında epik yanaşmanın simfonik janrda təzahürü ilə bağlı araşdırmalar aparılmış, o cümlədən S.Fərəcovun, C.Quliyevin bu səpkidə əsərlərinə nəzər salınmışdır.

Epik milli simfonik musiqinin inkişafına epik operalarımızdakı uvertüralar, antrakt səhnələrinə yazılan musiqi, baletlərdəki introduksiyalar, adajiolar, habelə Avropa musiqisi və s. mənbələr təsir etmişdir. Təbii ki, Üzeyir Hacıbəylinin "Koroğlu" operasının, Ə.Bədəlbəylinin "Qız qalası" baletinin, S.Hacıbəyovun "Karvan" simfonik lövhəsinin və s. kimi əsərlərin müasir bəstəkar yaradıcılığında təsiri danılmazdır.

Azərbaycan bəstəkarlarının yaradıcılığında epik simfoniyalar və simfonik əsərlər çox olmasa da, mövcud nümunələr maraqlı axtarışlarla zəngin əsərlər hesab edilə bilər. Epik-dramatik tərzli simfonik əsərlərə Sərdar Fərəcovun "Koroğlu əfsanəsi" (və ya "Koroğlu freskası"), "Xətai" simfoniya-dastanı, Cavanşir Quliyevin "Dastan" simfoniyası, "Oğuznamə" baletindən I Süita aiddir.

S.Fərəcovun "Koroğlu əfsanəsi" əsərinin mövzusu, adından məlum olduğu kimi, "Koroğlu" dastanından götürülmüşdür. Məzmunun əsas ideya xətti isə qəhrəmanlıq, vətənpərvərlikdir. Təbii ki, "Koroğlu əfsanəsi" I hissəli simfonik əsər olduğundan əsərin məzmunu bütünlüklə əhatə oluna bilməzdi. Burada yalnız konkret ideya – Koroğlu obrazının daxili aləmi, onun döyüşkənliyi, vətənpərvərliyi, qəhrəmanlığı musiqinin nəqledici dili ilə açıb göstərilir. Melodik inkişafdan, əsərin dramaturji gücündən əlavə orkestrin koloritli dili xüsusi əhəmiyyət kəsb edir. Bəstəkar dastanın ümumi məzmununu əhatə etmiş, "savaş" və "vətənpərvərlik" ideyalarını konsept nöqteyi nəzərdən "Koroğlu" dastanından götürmüşdür.

“Xətai” simfoniya-dastanı isə yeni tapıntılarla zəngin əsərdir. Bir-birinə bağlı, ayrılmaz 4 hissədən (Proloq, Variasiyalar, Dastan, Epiloq) ibarət olan əsərdə bəstəkar mövzu əsasında 6 variasiya yazaraq “Şah İsmayıl Xətai”ni bir qəhrəman kimi 6 simada təqdim edir, yəni ona altı cür xasiyyətnamə verir: I variasiyada hər kəsin tanıdığı Şah İsmayıl Xətai tanrının bir qulu, bəndəsi kimi, II variasiyada eşqlə dolu şair obrazında, III variasiyada sufi-dərviş kimi, IV variasiyada aşıq qismində, V variasiyada sərkərdə kimi, VI variasiyada isə tarixi şəxsiyyət – şah kimi təqdim edilir. Tanrının qulu kimi təqdim ediləndə “qudsallıq” konsepti, şairliyi təsvir ediləndə onun şeiri, sufiliyi təqdim ediləndə “Səma” rəqsi, aşıqlığı təqdim ediləndə aşıq musiqi–intonasiyaları, sərkərdəliyində “savaş” konsepti, “şahlığında” isə “alqış” konsepti öz əksini tapır. Burada dastanlara məxsus “çoxvariantlılıq” elementləri simfoniya daxilində “variasiya”lara bir növ ekvivalentdir. Yəni bir dastan müxtəlif variantlarda təqdim edildiyi kimi, S.Fərəcovun bir bəstəkar kimi təxəyyülündə “Şah İsmayıl Xətai” haqqında canlanan altı dastan variantı altı variasiyada öz əksini tapmışdır. Simfoniya daxilində bir neçə səsin oynaması və həmçinin səslərin hər hansısa mətni ifadə etməsini müşahidə edirik. Burada 2 səsin (sol#-Al, fa#-lah, yəni ALLAH) əsər boyu mövqeyini əks etdirməsi “şifrələnmiş musiqi”yə aid nümunədir.

Dissertasiyada nəzər yetirilən maraqlı əsərlərdən biri də C.Quliyevin Üzeyir Hacıbəyliyə həsr etdiyi “Dastan” simfoniyasıdır. Bəstəkarın söylədiyi kimi o, simfoniya daxilində sanki bir dastan yaratmışdır. Əsərdə Üzeyir bəyin obrazı canlandırılaraq onun işıqlı, saf fikirlərinə, tərəqqipərvər əməllərinə qarşı duran nadan və cahil dünya ifşa olunmuş, lakin hər cür müqavimətə rəğmən bu qaranlıq dünyanın dağıdıcı gücünün qarşısıalınmazlığına da güclü eyham vurulmuşdur.

C.Quliyevin “Kızılirmak” (2015), “Oğuznamə” (2016) və “Nuhun gəmisi” (yaxud “Tufan") adlı tammetrajlı baletlərinin də hər üçünün əsasında dastanlar və rəvayətlər durur. Lakin təəssüflər olsun ki, bu baletlərdən heç biri hələ də səhnələşdirilməyib. Məhz bu səbəbdən bəstəkar “Oğuznamə” baleti əsasında beş süita tərtib etmişdir. Süitalardan yalnız “I Süita” İstanbul Universitetinin Böyük zalında tələbələrin ifasında səslənmişdir.

“I Süita”ya “Döyüş”, “Adajio”, “Bayram” adlı musiqi nömrələri aiddir . Özündə “savaş” konseptini əks etdirən “Döyüş” adlı hissədə Tanrıların Tanrısı Ulu Ülənglə qəfildən gəlmiş Yeraltı Dünyanın Tanrısı Erlikin döyüşü təsvir olunur. Üləngin işarəsi ilə qədim türk mifiologiyasının əsas qəhrəmanları (Tanrıları) – Boz Qurd, Altun Korsak Tülkü, Qaraxəz Samur, Bəyaz Susamuru döyüşür və şər dünyaya qalib gəlirlər.

“Adajio” adlı hissədə Tanrılardan biri sayılan Boz Qurdun göylərdən yerə enməsi və Ayqağan adlı qızı görüb vurulması, onların məhəbbət səhnəsidir. “Adajio” hisəsi həzn, lirik melodiya üstündə qurulsa da, lakin buradakı sakitlik bir qədər gərgin tonlarla da bəzən əvəz olunur. Müəyyən qədər “Döyüş” səhnəsinin melodik intonasiyaları hiss edilir.

“Bayram” adlı hissədə isə Ayqağanla Boz Qurdun övladı olan Oğuzun tezliklə igid bir cəngavər olması, digər Tanrılarla birgə Erliklə vuruşub ona qalib gəlməsinin təmtərağı öz əksini tapır

Balet musiqisinin əsasında yaradılan “I Süita”ya nəzər salmaqla qedy edə bilərik ki, əsər ən qədim dastanlardan biri olan “Oğuznamə” dastanı ilə mövzu və məzmun cəhətdən sıx bağlıdır. Süitaya daxil olan musiqi nömrələrinin hər biri müstəqil olsalar da, eyni zamanda “Oğuznamə” baletinin mövzusuna, librettosuna və məzmuna müəyyən qədər tabedir.

Adları çəkilən əsərlərin təhlilinin yekunu olaraq deyə bilərik ki, Azərbaycan bəstəkarlarının yaradıcılığında epik-dramatik simfoniyalar üstünlük təşkil edir. Simfoniyalardakı obrazlılıq, aramlılıq, təhkiyəçilik, teatrallıq, dastan konseptlərinin mövcudluğu, aşıq musiqisinin ahəngi, proqramlılıq, folklor nümunələrindən istifadə və s. kimi elementlər epiklikdən xəbər verirsə, musiqidəki kəskin səslənmələr, təzadlar, qəfil dönüşlər-modulyasiyalar dramatiklikdən irəli gələrək epik-dramatik ab-havanı yaradır.

III fəslin ikinci paraqrafı **3.2. “Azərbaycan bəstəkarlarının vokal-instrumental yaradıcılığında dastan”** adlanır. Bu paraqrafda Sərdar Fərəcovun “Dədə Qorqud” dastanı əsasında “Banuçiçəyin həsrəti”, “Beyrək” adlı vokal-simfonik balladaları təhlilə cəlb edilmişdir.

S.Fərəcovun “Banuçiçəyin həsrəti” vokal-simfonik balladası dastan konseptləri sırasında “ağı” konseptinə aid əsərlərdəndir. Ballada kuplet-nəqərat formasında olaraq iki hissədən ibarətdir. Qeyd edək ki, kuplet-nəqərat formasını xatırladan əsərin kompozisiya-quruluşunu həm də ənənəvi aşıq havalarının forması ilə müqayisə etmək olar.

Bəstəkarın “Beyrək” adlı II vokal-simfonik balladası da “Dədə Qorqud” dastanının boylarından birinin əsasında yazılmış musiqili dastandan bir parçadır, hekayət – əhvalatdır. Yazıçı-dramaturq Kamal Abdullanın sözləri əsasında Qiraətçi, xor, solistlər – bariton, metso-soprano və simfonik orkestr üçün bəstələnmişdir. “Beyrək” balladasının epik əsərlərə xas olan cəhətlərdən biri də əsərin qiraətlə başlamasıdır. “Banuçiçəyin həsrəti” və “Beyrək” vokal-simfonik balladaları dastan janrının musiqidə mövzu və konsepsiya kimi təzahürünə bariz nümunələrdir.

III fəslin sonuncu paraqrafı **3.3. “Azərbaycan bəstəkarlarının kamera – instrumental əsərlərində dastan janrının təzahür formaları”** adlanır. Bu paraqrafda Aqşin Əlizadənin fortepiano üçün “Dastan” və Firəngiz Əlizadənin solo violin üçün “Dastan”, habelə Yaşar Xəlilovun “Muğam dastanı” əsərləri təhlilə cəlb olunmuşdur.

Aqşin Əlizadə və Firəngiz Əlizadənin “Dastan” əsərləri hər hansı bir dastanın boyları və ya qolları ilə mövzu, struktur, forma cəhətdən əlaqəli deyil. Dastan janrı ilə bağlılıq müəyyən mənada şərhçilik, təhkiyəlilik elementlərində özünü büruzə verir. Əsas fərq hər iki bəstəkarın arxalandığı milli üslubun semantikasındadır. Aqşin Əlizadənin “Dastan” əsərindəki “hekayət” aşıq musiqisi ənənələri üzərində qurulubsa, Firəngiz Əlizadənin “Dastan” əsərində mistik, gizli bir olayın şərhi muğam tematizmi vasitəsilə verilmişdir.

Y.Xəlilovun “Muğam dastan” əsəri dörd hissəli kompozisiyadır: I hissə “Dəraməd”, II hissə “Mayə”, III hissə “Təsnif”, IV hissə “Rəng” adlanır. Bu əsərdə tar solist kimi çıxış edir.

III fəsildə aparılmış təhlilləri ümumiləşdirərək belə bir qənaətə gəlirik ki, simfonik, vokal və kamera-instrumental əsərlərdə “dastan” ədəbi janrına məxsus cəhətlərin müəyyən bir qismi tətbiq edilir. Təhkiyəlilik, epiklik, aşıq musiqisinin intonasiyaları, eləcə də struktur-forma elementlərinə simfonik, vokal və kamera-instrumental əsərlərdə

rast gəlinir. Bəzi əsərlərdə həm mövzu, həm də konsept nöqteyi nəzərdən bəstəkar yanaşmalarını görə bilərik. Lakin elə əsərlər də var ki, nə mövzu, nə də konsept olaraq həmin dastanlarla bağlı deyil.

Dissertasiyanın **Nəticə** bölməsində aparılan təhlillərdən əldə edilən əsas nəticələr verilmişdir:

1. Azərbaycan bəstəkarlarının səhnə əsərlərində "dastan" birbaşa olaraq opera-dastan və balet-dastanlar kimi qəbul edildiyi halda, digər janrlarda dastan konsepsiyasının təzahürü kimi qəbul edilir. Burada konsepsiya dedikdə dastan janrına məxsus olan cəhətlərin, qanunauyğunluqların bir qisminin yığcam şəkildə əsərlərə tədbiq edilməsi nəzərdə tutulur və "musiqili dastan"lar kimi təqdim edilir.

2. Dastanlar əsasında yazılan səhnə əsərlərində bəstəkar musiqisi, libretto, ümumi olaraq süjet və dramaturji inkişaf birbaşa olaraq dastan janrı ilə əlaqəlidir. Yəni bəstəkarlar orijinal dastandakı hadisələrin gedişatını operalarda qoruyaraq, müəyyən ixtisarlara yol versələr də, ümumi dastan strukturuna xələl gətirmirlər. Nəsr hissə dialoq və reçitativlərlə, nəzm hissə ariya, leytmotivlər əsasında qurulur. Baletlərdə isə reçitativlər duetlərlə, monoloqlar solo rəqslərlə, baş qəhrəmanların ariya-duetləri adajiolarla, xor səhnələri kütləvi rəqslərlə ifadə olunur.

3. Əksər epik operalar xalq səhnələri ilə başlayır və məhz xalq səhnələri ilə də tamamlanır. Xalq səhnələrinin çoxluğu vətənpərvərlikdən, milli ideyaların tərənnümündən irəli gəlir. Burada da yenə epik təfəkkürün izləri özünü göstərir. Qeyd edək ki, epik təfəkkür, eləcə də dastan janrının təzahür formaları Azərbaycan bəstəkarlarının yaradıcılığında özünəməxsus şəkildə büruzə vermişdir. Çünki epik təfəkkür milli köklərdən qaynaqlanaraq Azərbaycan bəstəkarlarının yaradıcılığına müxtəlif cür təsir edir.

Burada dastan sözünün istifadəsindən başlayaraq epik təfəkkürün qanunauyğunluqları bəstəkarlar tərəfindən dərindən dərk edilir və əsərlərinin təfsirində yer alır.

4. Musiqi janrları arasında milli məfkürə və milli təfəkkür ən gözəl ifadəsini məhz səhnə əsərlərində – xüsusilə dastanlar əsasında yazılmış operalarda tapır.

5. Azərbaycan bəstəkarları əsasən dastan konseptsferasının konseptlərindən istifadə etmiş və ümumən epik janrın

qanunauyğunluqları epik operalarda öz əksini tapmışdır. Qeyd edək ki, aşıq havalarından irəli gələrək dastanlarda "öymə", "savaş", "ağı", "qudsallıq" və s. kimi konseptlər vardır. Məhz həmin dastan konseptləri Azərbaycan bəstəkarlarının yaradıcılığında öz təzahürünü tapır.

6. Dastanlar əsasında yazılan səhnə əsərlərindən fərqli olaraq, simfonik və digər musiqi janrlarında bəstəkarlar nəsrlə nəzm əvəzlənməsini etmirlər və struktur məsələlərinə sərbəst, daha yaradıcı yanaşaraq dastan janrına məxsus xüsusiyyətləri öz seçimlərinə uyğun şəkildə göstərirlər. Epik simfonik və müxtəlif janrlı əsərlərdə şərhçilik (remarkalar) elementlərinə geniş yer verilir. (Məsələn, C.Quliyevin "Dastan" simfoniyasında, S.Fərəcovun "Banuçiçəyin həsrəti" vokal-balladasında remarkalara rast gəlinir). Eləcə də bəzi əsərlərdə teatrallıq da yer alır (C.Quliyevin "Dastan" simfoniyası, S.Fərəcovun "Beyrək" və "Banuçiçəyin həsrəti" vokal-simfonik balladasında teatral elementlər vardır).

7. Epik simfonik və müxtəlif janrlı əsərlərdə musiqi dilinin zənginliyi, temp, dinamika, milli harmoniya, dəyişkən ritmik cizgilərə və s. rast gəlinir. Dəyişkən ritmik cizgilər və s. epik simfoniya daxilində dastana məxsus "variantlılıq"dan irəli gəlir. Bəstəkarlar sübut edir ki, təkcə şifahi xalq ədəbiyyatında deyil, hətta epik simfoniya daxilində də qəhrəmanlar müxtəlif variantlarda təsvir edilə bilər. Hər təsvir, qəhrəmana aid hər hadisə musiqi dili baxımından əsas mövzudan qaynaqlanır. Məsələn, Şah Xətai sərkərdə, sufi-dərviş, aşiq, aşıq, dövlət başçısı, şair kimi təsvir edilir və hər təsvir əsas mövzudan (sol#-fa# notları ilə başlayan çağırışlı mövzu) qaynaqlanaraq variantlı şəkildə təqdim edilir. Epik simfonik əsərlər əsasən proqramlı olur.

8. Azərbaycan bəstəkarlarının yaradıcılığında epik simfoniyalar daha çox epik-dramatik simfoniyalar kimi öz əksini tapır. Çünki epik simfoniyalarda məhz dastan konseptləri ("savaş", "ağı") dramatik düyün yaradır. Lakin epik simfoniyalarda dramatiklik uzun müddət davam etmir.

9. Simfonik, kamera-instrumental və vokal-instrumental əsərlərin formalarından və imkanlarından irəli gələrək dastançılıq – epik təfəkkür subyektiv şəkildə özünü büruzə verir. Hər bəstəkar artıq dastan janrının əsas cəhətlərini bütünlüklə deyil, müəyyən

qismini əsərinə tətbiq edərək ayrı-ayrı konseptləri təfsir edir. Bəzi əsərlərdə struktur və forma, bəzilərində isə mövzu və təhkiyəçilik elementlərinə, konseptlərə rast gəlmək mümkündür.

10. Bəzi Azərbaycan bəstəkarlarının yaradıcılığında "dastan" adlı əsərlər də vardır ki, mahiyyəti etibari ilə ənənəvi dastançılıqla bağlı olmasa da, rəmzi mənada qəbul edilir. Həmin əsərlərə dastan adının verilməsi birmənalı qarşılanmır. Aparılan tədqiqatlar əsasında məlum olur ki, dastan konsepsiyasının ən dolğun təzahür formaları Ü.Hacıbəylinin, M.Maqomayevin, Z.Hacıbəyovun, P.Bülbüloğlunun, S.Fərəcovun və C.Quliyevin yaradıcılığında öz əksini tapır.

11. Bəstəkarlar artıq dastana geniş mənada baxır, öz təfəkkürünə əsaslanaraq dastan konsepsiyasını sərbəst surətdə yaradırlar. Adları sadalanan əsərlərdə məlum Avropa formalarının konturlarını axtarıb tapmaq mümkün deyil. Belə əsərləri "musiqili dastanlar" və ya "musiqi dastanları" kimi də təqdim etmək olar. Lakin bu zaman "musiqili dastanlar" ümumi anlayış kimi qəbul edilə bilər. Məsələn, F. Əmirov tərəfindən "simfonik muğam"lar musiqidə yeni janr olduğu kimi, "opera-dastan" Ü.Hacıbəyli, M.Maqomayev, Z.Hacıbəyov, "balet-dastan" P.Bülbüloğlu, "ballada-dastan" S.Fərəcov, "simfoniya-dastan" S.Fərəcov və C.Quliyev, "muğam-dastan" Y.Xəlilov, dastançılıq ideyalarını "rəmzi" və "simvolik" mənada özündə ehtiva edən nisbətən kiçik həcmli musiqi dastanları isə Aqşin Əlizadə və Firəngiz Əlizadə tərəfindən musiqiyə yenilik olaraq daxil edilmişdir. Bu baxımdan da dastan konsepsiyasını özündə əks etdirən kiçik pyeslər, irili-xırdalı əsərlər daxil olmaqla opera-dastan, balet-dastan, simfoniya-dastan, ballada-dastan janrları ümumilikdə – "musiqili dastanlar" terminində cəmlənir. "Musiqili dastan" dedikdə "dastan" janrına daha geniş rakrursdan baxılaraq onu yalnız bəstəkar əsərində aşıq yaradıcılığının inikası kimi kimi deyil, həm də bəstəkar təxəyyülünün fərdi və özünəməxsus təzahürü kimi dəyərləndirmək mümkündür. Çünki "musiqili dastan" yazan bəstəkar təkcə əsərinin musiqi müəllifi deyil, həm də bir növ şair – yazıçı, ozan-aşıq, qiraətçi, bəzən isə gizli qəhrəmandır.

12. Bəzi dastanlar əsasında yazılan əsərlərdə hərf-notlarda gizlənən sözlər, çağırışlar, müraciətlər, xitablar vardır ki, onlar "şifrələnmiş musiqi"yə nümunələrdir.

13. Bəstəkar yaradıcılığında ədəbi dastan janrının təzahür formaları simfonik və kamera-instrumental janrlarda yeni tapıntılarla zəngindir. Çünki bu janrlarda bəstəkarlar dastanların mövzu və məzmunundan asılı olmayaraq, dastan süjetlərinə qarşı öz şəxsi münasibətlərini bildirir və proqramlı musiqinin daxilində yeni məzmun formaları yaradırlar. Dastanlar əsasında yazılan bəstəkar əsərlərindən heç biri epik dastan janrından tamamilə asılı deyil, lakin dastanlara xas olan ən vacib elementlərdən (mövzu-məzmun, ideya xətti-süjet, forma-struktur, konseptsfera və ayrı-ayrı konseptlər) ən azı bir neçəsi tətbiq edilir.

Beləliklə, təhlil etdiyimiz əsərlərin icmalı bizi belə qənaətə gətirir ki, XX əsrin sonu – XXI əsrin əvvəllərində Azərbaycan bəstəkarları öz əsərlərində epik yaradıcılığa xas olan konseptləri özünəməxsus şəkildə təfsir etmişdilər. Səciyyəvidir ki, Azərbaycan bəstəkarları bu konseptlərin arxetipik xüsusiyyətlərini müasir bəstəkarlıq texnikasının özəllikləri ilə uzlaşdıra bilmişdilər. Burada ədəbi-epik dastan janrı – bəstəkar yaradıcılığının müasir yazı texnikasına tabe olaraq müxtəlif cür öz əksini tapır. Səhnə əsərləri dastanların mövzusuna, süjet xəttinə tabe olduğu halda, simfonik əsərlər daha çox dastanların forma və struktur elementlərinə, dastan konseptlərinə tabedir. Kamera-instrumental, vokal-instrumental əsərlərdə isə dastanlara məxsus nəsr və nəzm hissələrinin özəllikləri daha çox öndə durur. Nəsr dedikdə təhkiyəçilik, axıcılıq, epiklik nəzərdə tutulur. Nəzm hissəyə isə xitablar (bəyim, xanım), arxaik sözlər, öyüd, deklamasiya tipli monoloqlar və s. aiddir. Bütün bu cəhətlər Azərbaycan bəstəkarlarının yaradıcılığında dastan janrının mövzu və konsepsiyanın təfsiri ilə nəticələnir.

XX əsrin klassik Azərbaycan bəstəkarları məhz səhnə əsərlərində dastan mövzusunu əsaslanır və opera-dastan, balet-dastan və s. yaratmış olurlar. Digər tərəfdən isə XX-XXI əsrin müasir Azərbaycan bəstəkarları səhnə əsərlərindən əlavə, digər musiqili janrlarda dastan süjetlərindən qismən çıxış edərək sərbəst və yaradıcı təxəyyülə daha çox yer verərək musiqili dastan yaradırlar. Məsələn, simfoniya daxilində müəyyən dastan qəhrəmanından bəhs olunsa da, baş verən hadisələrin gedişatı bilavasitə bəstəkar təxəyüllünün nəticəsidir. Nümunə kimi S.Fərəcovun "Xətai" simfoniya-dastanını

qeyd edə bilərik. Bu simfoniyada hadisələrin gedişatı bəstəkarın öz uydurmasıdır. C.Quliyev "Dastan" simfoniyasında Üzeyir Hacıbəylini dastan qəhrəmanı kimi təsvir etsə də, təbii ki o, həqiqi dastan obrazı deyildir. Burada dastanın mövzuları, süjet xətti və məzmunundan daha çox ümumi konsepsiyalar (ayrı-ayrı dastan elementləri) əsas götürülür.

Azərbaycan bəstəkarlarının bəzi əsərlərində isə aşıq musiqisinin intonasiyaları muğam intonasiyaları ilə əvəz olunaraq dastanlara məxsus nəqlediciliyi, axıcılığı ifadə edir. Məsələn, A.Əlizadənin fortepiano üçün "Dastan" və F.Əlizadənin solo violin üçün "Dastan" pyesləri, Yaşar Xəlilovun "Muğam-dastan" əsəri deyilənlərə nümunədir.

Təhlil etdiyimiz əsərlər bizi belə qənaətə gətirir ki, Üzeyir Hacıbəyli tərəfindən yaradılan Azərbaycan bəstəkarlıq məktəbi bu günə kimi dastan janrına mövzu, konsepsiya və konsept kimi müraciət etməkdə davam edir və bu da Azərbaycan bəstəkarlıq məktəbinin özünəməxsusluğunu göstərən əsas cəhətlərdən biridir. Bir çox Azərbaycan bəstəkarları dastan təfəkküründən qaynaqlanaraq müxtəlif formalı musiqili dastanlar yaratmağa müvəffəq olublar.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı əsərləri çap olunmuşdur:**


1. Fərəcova H.S. Azərbaycan bəstəkarlarının simfonik yaradıcılığında "Dastan" konsepsiyasının təzahürünə dair // – Bakı: Elmi əsərlər ADMİU, – 2016. – № 22, – s. 89-93.
2. Fərəcova-Cabbarova, H.S. Sərdar Fərəcovun "Beyrək" vokal-simfonik balladasında dastan janrının struktur xüsusiyyətləri // Doktorantların və gənc tədqiqatçıların XXI Respublika Elmi Konfransının materialları, – Bakı, – 2017, – s.242-243.
3. Fərəcova-Cabbarova, H.S. Kamera-İnstrumental musiqidə "Dastan" konsepsiyasının təzahürünə dair // "Türksoylu Xalqların Musiqi Mədəniyyətinin Tədqiqi Problemləri" XVI Beynəlxalq elmi-praktiki konfransın materialları, – Bakı, – 2017, – s.148-152.
4. Fərəcova-Cabbarova, H.S. Dastan – musiqidə bədii-estetik anlayış kimi // – Bakı: Konservatoriya, – 2017. – № 3(37), – s.63-66.

5. Fərəcova-Cabbarova, H.S. Sərdar Fərəcovun “Xətai” simfoniya – dastanı // – Bakı: Harmoniya, – 2018. – № 17.
6. Fərəcova-Cabbarova, H.S. Cavanşir Quliyevin “Dastan” Simfoniyası // – Bakı: Mədəniyyət dünyası, – 2018. – № 35, – s. 87-96.
7. Fərəcova-Cabbarova, H.S. Cavanşir Quliyevin “Oğuznamə” baletindən süita // – Qazaxıstan: Poisk, – 2018. – № 2, – s. 64-67.
8. Farajova-Jabbarova, H.S. “Mugham-Dastan” by Yashar Khalilov //6th International Conference Ohrid-Vodici “Diaspora, Transnationalism, Transcultural Capitalism and Intercultural Communications as New Forms of Social Capital”, Macedonia, 17-19 january, – 2018, – s. 281-284.
9. Fərəcova-Cabbarova, H.S. “Dədə Qorqud” dastanının müasir musiqi təfsiri // – Bakı: Mədəniyyət.az, – 2019. – № 6, – s.55-58.
10. Фараджова-Джаббарова Х.С. Проявление концептсферы дастана в творчестве азербайджанских композиторов // – Москва: Музыка и время, – 2020. – № 6, – с.36-42.
11. Fərəcova-Cabbarova, H.S. Dastanın musiqili-poetik janr kimi xüsusiyyətlərinə dair // – Bakı: Konservatoriya, – 2021. – №4(53), – s.66-78.
12. Fərəcova-Cabbarova, H.S. // Naxçıvan: Axtarışlar, - 2022, - №4(44), 16-cı cild, -s. 191-198.

Dissertasiyanın müdafiəsi 29 fevral 2024-cü il tarixində saat 12⁰⁰ Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 26 yanvar 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 18.01.2024

Kağızın formatı: 60x84 1/16

Həcm: 41 286 işarə

Tiraj: 100